# Yeni tarixi mərhələdə milli ideya

**XV MƏQALƏ**

**Biz birlikdə güclüyük.**

**İlham ƏLİYEV,
Azərbaycan Respublikasının
Prezidenti**

## Milli ideyanın regional transformasiyası

Milli ideyanın regional təşkilat miqyasına transformasiyası müstəqil dövlətçilik tarixində mühüm hadisədir. Çünki bu, dövlətçiliyin və cəmiyyətin güclənməsinin yeni mərhələyə qədəm qoyduğunun əlamətlərindən biridir. Milli ideya hər bir dövlətin gücü çata biləcək əhatədə və məzmunda formalaşa bilər. Məsələn, zəif dövlət milli ideya kimi qarşısına hansısa regional təşkilatın aparıcısı olmaq və ya inkişafda Avropaya çatmaq kimi bir məqsəd qoyursa, bu, absurddan başqa bir şey deyildir. Birincisi, zəif dövlət həmin məqsədlərə çata bilməz. İkincisi, bu uğursuzluq cəmiyyətdə ruh düşkünlüyü və inkişaf istiqamətini itirmək kimi apatiya yarada bilər. Bu da milli ideyanın dövləti və cəmiyyəti inkişaf etdirmək kimi əsas funksiyanı itirməsi deməkdir.

Buradan konkret nəticə alınır: milli ideya toplumun süni və abstrakt istəklərindən deyil, dövlətin gücünün reallıqlarından çıxış edərək, həyata keçirilə biləcək vəzifənin müəyyən edilməsindən yaranır. Buna görə də hər bir mərhələdə milli ideya dərindən düşünülmüş, əsaslı və konkret çatıla biləcək məqsədə uyğun müəyyən edilməlidir.

Azərbaycanın yeni tarixi mərhələdə milli ideyasında regional təşkilat miqyasına transformasiya oluna biləcək faktorların yer alması konkret reallığa əsaslanır. Bu tezisin təməlində Prezidentin birinci mərhələnin yekunu ilə bağlı apardığı ümumiləşdirmədə vurğulanan bir fikir dayanır: tarixi ədalətin bərpası, milli ləyaqətin və beynəlxalq hüququn təmini. Bu baza üzərində Azərbaycan müstəqil dövlət kimi yeni mərhələyə yüksələ bilər. Onun stimulverici faktoru isə ərazi bütövlüyünün tam bərpası və suverenliyin tam təminidir.

Buradan növbəti sual yaranır: Milli ideyanın bir mərhələsinin vurğulanan şərtləri yeni tarixi mərhələdə TDT ilə bağlı Prezidentin xüsusi müəyyən etdiyi 8 təməl faktorun reallaşması üçün yetərlidirmi? Yəni ərazi bütövlüyü, milli ləyaqət və beynəlxalq hüquq böyük coğrafiya, böyük ərazi, böyük hərbi güc, böyük iqtisadiyyat, zəngin təbii sərvətlər, geniş nəqliyyat yolları, dinamik demoqrafik sfera və bir soydan, kökdən olmaq kimi mürəkkəb fenomenlərin konkret məzmun almasına kifayət edirmi?

Diqqət etsək, görərik ki, TDT, faktiki surətdə mürəkkəb tərkibli faktorlar üzərində bərqərar olur. Coğrafiya, ərazi, hərbi güc, iqtisadiyyat, təbii sərvətlər, kommunikasiya potensialı, demoqrafik özəllik və soykök fərqli sosial-mədəni, iqtisadi və mənəvi-ideoloji sferalara aid parametrlərdir. Onlar regional təşkilat miqyasında harmonik qarşılıqlı əlaqələrin formalaşmasını tələb edirlər. Həmin faktorların yekun sinergetik enerjisi təşkilatın daxili inkişafına təkan verərək, onun davamlı tərəqqisini təmin edən mühit formalaşdıra bilər. Bu, təbii ki, nəhəng vəzifədir və reallaşması asan deyildir. Buna görə də ərazi bütövlüyü, milli ləyaqət və hüququn sintezdə müsbət təsir göstərə biləcəyi əsaslandırılmalıdır.

## Azərbaycan dövlətçiliyinin iki güclü arqumenti

Milli ideyanın milli miqyasdan millətlərarası təşkilati miqyasa transformasiyası yalnız güclü dövlətin mövcudluğu şəraitində mümkün ola bilər. Dövlət güclü olmasa, heç bir istək və arzu real olaraq milli ideyanın "milli sərhədləri" aşmasına təkan verə bilməz. Dövlətin gücünü də hər bir konkret mərhələdə konkret faktorlara görə müəyyən etmək mümkündür. Bu baxımdan Azərbaycanın siyasi-hərbi yolla ərazi bütövlüyünü bərpa etməsi, milli ləyaqəti və beynəlxalq hüququ təmin etməsi dövlətin gücünü ifadə edir. Bu faktorların hər birinə ayrılıqda baxaq.

Ərazi bütövlüyünün öz gücünə həll edilməsi prinsipial olaraq dövlətçiliyin inkişafına bağlıdır. Çünki ciddi bir qarşıdurmada, özü də dünyanın bir çox güclü dövlətinin havadarlıq etdiyi bir münaqişədə təcavüzkar dövləti siyasi, informasiya və hərbi meydanda məğlub etmək Azərbaycan dövlətinin birbaşa gücünün göstəricisidir. Onu da nəzərə almaq lazımdır ki, Azərbaycan həmin savaşa, demək olar ki, krizis vəziyyətindən başlayaraq cəmi 30 ilə gəlmişdir.

Deməli, burada iki faktor özünü göstərir. Birincisi, Azərbaycanın dövlətçilik ənənəsi güclü özünüyaratma və inkişafetdirmə potensialına malikdir. İkincisi, müasir mürəkkəb şəraitdə Azərbaycan rəhbərliyi həmin potensialın tam faydalı aspektdə reallaşmasının mükəmməl kursunu müəyyən edə bilmişdir.

Bu iki faktor həm də onu nümayiş etdirir ki, indi Azərbaycanda tarixi potensialı müstəqil dövlətçilik kontekstində reallığa çevirə biləcək liderlik imkanı mövcuddur! Milli ideyanın həyata keçməsinin başlıca təməl prinsipi bu tezislə bağlıdır. Yəni Azərbaycan regional təşkilat miqyasına təkcə güclü dövlətçilik ənənəsinə malik ölkə kimi deyil, bu həqiqəti konkret tarixi mərhələdə uğurla gerçəkləşdirən liderə malik dövlət kimi çıxmışdır. Deməli, milli ideyanı regional təşkilat çərçivəsində məzmunlaşdırmaq imkanı artıq mövcuddur!

Güclü liderlik və güclü dövlətçilik Prezident İlham Əliyevin timsalında hazırda harmoniya səviyyəsinə yüksəlmişdir. Güclü liderin güclü dövləti hansı üsul, yol və ritmdə yeni səviyyələrə çıxaracağı liderin özünə tam aydındır. İlham Əliyev yeni tarixi mərhələni öncədən görərək milli maraqların bu səviyyədə də ödənməsinin fəlsəfi, siyasi, ideoloji, mədəni, mənəvi və sosial-iqtisadi şərtlərini çox gözəl bilir. Bu aspektdə də milli ideyanın regional təşkilat miqyasına transformasiyası Azərbaycan üçün real və həyata keçə biləcək məqsəddir!



Güclü liderin güclü dövləti milli ideyanın yeni mərhələdə reallaşmasına səfərbər edə biləcəyinin konkret mexanizmi də vardır. Bu, güclü liderin tam arxalana bildiyi və qüdrətinə əmin olduğu faktordur. Həmin faktor Azərbaycan xalqıdır, Azərbaycan cəmiyyətidir. Bu xalq öz liderini daim dəstəkləmişdir. Azərbaycan indi İlham Əliyevin "Biz birlikdə güclüyük!" tezisinin məna və məzmun gücündə birləşən mobil toplumdur.

Deməli, regional təşkilat miqyasında uğurlu fəaliyyət üçün güclü liderin böyük dayağı vardır. Nəticədə milli ideya milli sərhədi aşaraq regional təşkilat miqyasında reallaşan faktora çevrilə bilər.

Burada güclü lideri, güclü dövləti və mobil kreativ toplumu fəaliyyətdə uzlaşdıra biləcək mexanizmlər sırasında inkişaf paradiqmasını istiqamətlənmək ayrıca yer tutur. İnkişaf paradiqması güclü bir mexanizmdir. O, bütövlükdə lideri, dövləti və cəmiyyəti vahid məqsədə fokuslandıra bilir. İnkişaf paradiqması yeni tarixi mərhələdə Azərbaycan milli ideyasının milli miqyasdan regional təşkilat miqyasına transformasiyasının başlıca mexanizmi olmalıdır. İnkişaf davamlı və kəsintisiz aparılmalıdır ki, yekunda qarşıya qoyulan məqsədə tam çatsın.

Bununla milli ideyanın regional təşkilat səviyyəsinə transformasiyasında vacib bir özəlliyə gəlib çıxırıq. Məsələ ondan ibarətdir ki, yeni tarixi mərhələdə milli ideya məzmun və məqsəd baxımından "çeviklik özəlliyi"nə malik olmalıdır. Yəni, bundan sonrakı tarixi mərhələdə uzun müddət sabit qala biləcək bir durum gözlənilmir. Hər şey sürətlə və gözlənilməz tərzdə dəyişəcək. Bu, o deməkdir ki, milli ideyada konkret bir vəzifə müəyyən edilirsə, tarixin gedişində o da yeni məzmun çaları ala bilər. Lakin bu şərti ödəyə biləcək və həm də dayanıqlı qalacaq bir fəaliyyət sistemi yaratmağın özü ciddi yaradıcılıq tələb edir. İnkişaf paradiqması ümumi çərçivədə buna xidmət edir.

Bu çərçivədə situasyanın necə dəyişməsindən asılı olmayaraq lider, dövlət və cəmiyyətin ahəngdar fəaliyyəti sayəsində milli ideyanın yeni şəraitə uyğunlaşaraq reallaşması prosesi kəsintisiz davam edəcəkdir. Məsələ, fərz edək ki, bir müddət sonra filosofların bəşəri inkişaf üçün müəyyən etdikləri bədbin ssenarilərdən biri reallaşır. Deyək ki, süni intellekt avtonom olaraq cəmiyyətin müxtəlif sferalarına nəzarətsiz təsir etmək imkanı əldə edir. Bu ssenari də qəbul edilmiş inkişaf paradiqması çərçivəsində, bütövlükdə, dövlətin tərəqqisinə əngəl olmamalıdır. Onun yolu isə milli ideyanın məhz inkişaf paradiqması kontekstində müəyyən olunmuş məzmununa uyğun həyata keçməsi olacaq. Bununla Azərbaycan istənilən şəraitdə milli ideyanın regional təşkilat miqyasına transformasiyası və orada reallaşması şansını saxlayacaqdır.

Milli ideyanın məzmunu və məqsədində TDT faktorunun nəzərdə tutulmasının başqa bir strateji əhəmiyyəti mövcuddur.

## "Strateji müttəfiq" və "dost ölkələr"

XXI əsrdə filosoflar və politoloqlar həm "strateji müttəfiq", həm də "dost ölkələr" anlayışlarına daha geniş yer verməyə başlamışlar. Bunun əsas səbəbi qloballaşmanın davamlı olaraq dünya miqyasında geosiyasi mühiti dəyişməsi ilə bağlıdır. İndi ayrıca bir dövlətin davamlı şəkildə dünya miqyasında uğurlu ola biləcəyinə inam çox azdır, çünki bunun əsasını tapmaq olmur. Əgər XXI əsrin başlanğıcına kimi dövlətin geosiyasi nüfuzunu əsas olaraq iqtisadi güc tənzimləyirdisə, indi çoxparametrli proseslər bunun kifayət olmadığını təsdiq edirlər. Artıq dövlətin gücü onun daxili inkişaf potensialı ilə strateji müttəfiqlik və dost ölkələr dairəsi ilə sıx bağlıdır. Hər hansı dövlətin dost ölkələrinin sayı və gücü çoxdursa, dünya miqyasında nüfuzu da bir o qədər böyükdür. Məsələn, Azərbaycanla bağlı BMT-dəki səsvermə zamanı əldə olunan nəticə prizmasında bunu aydın görmək olur.

Azərbaycan bir neçə dəfə bu təşkilat çərçivəsində strateji müttəfiqlik fəlsəfəsi və dost ölkələrin təsiri sayəsində mübarizədən qalib çıxmışdır və bu proses indi daha da güclənmişdir. 2012-ci ildə BMT TŞ-nin qeyri-daimi üzvü olanda bunu aydın gördük. Sonra, pandemiya mərhələsində Qoşulmama Hərəkatının sədri kimi Azərbaycanın BMT-də qarşılıqlı paylaşma və yardımlaşmada ədalət prinsipini gözləməklə bağlı etdiyi təklif əsasında xüsusi iclasın keçirilməsində bunu hər kəs gördü. Bu il Azərbaycanın COP29-a evsahibliyi etmək hüququnu qazanması dövlətin strateji müttəfiqlik fəlsəfəsi və dost ölkələrin real dəstəyini ala bilmək qüdrətinin birbaşa göstəricisidir.

Nəhayət, bir nümunə də Azərbaycanın böyük dövlət olan Fransanın müstəmləkə siyasətini ifşa etmək istiqamətində Qoşulmama Hərəkatı çərçivəsindəki fəaliyyətinə həmin təşkilatdakı dost ölkələrdən ciddi dəstəyin verilməsi ayrıca qeyd edilməlidir. Kənardan da böyük dövlətlər Azərbaycanın bu təşəbbüsünə yüksək qiymət verməkdədirlər. Onların sırasında strateji müttəfiq və dost ölkələr də vardır.

Deməli, Azərbaycan faktiki olaraq güclü lideri ilə güclü dövlət kimi regional və qlobal miqyasda nüfuzunu və təsir dairəsini artırır. Bu da onu göstərir ki, yeni tarixi mərhələdə milli ideyanın məzmununda strateji müttəfiqlik və dost ölkələr faktorları öz yerini tutmalıdır.

Milli ideyaya həsr etdiyimiz 15 fəlsəfi məqalədən alınan yekun nəticə belədir: Azərbaycan yeni tarixi mərhələdə milli ideyasını güclü lider, güclü dövlət və güclü cəmiyyət vəhdətində müəyyən edə bilər. Bu zaman istənilən dinamik situasiyada dövləti tərəqqiyə fokuslandıran inkişaf paradiqması müəyyən olunmalıdır. İnkişaf paradiqması milli miqyasla məhdudlaşmamalıdır. Çünki yeni tarixi mərhələyə Azərbaycan geniş bir geosiyasi məkanın güclü lideri və güclü dövləti kimi qədəm qoyur. Bu da milli ideyanı regional təşkilat miqyasında məzmunlaşdırmağı tələb edir. Yəni Azərbaycan, faktiki olaraq, müstəqil güclü dövlət kimi özünün yeni inkişaf səviyyəsinə qədəm qoymuşdur ki, bu məqam mütləq milli ideyada öz yerini tutmalıdır.

Azərbaycanın yeni milli ideyası daha geniş məkanda onun liderliyinə aparan yolun ideya, mənəvi və mədəni mayakı olmalıdır.

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***